Adımız məfkurəmizdir

20 – 26 dekabr 2022-ci il

Türküstan

www.turkustan.az

Gülşən Hacıyeva

# Türkiyənin turizm cənnəti: Qərbi Qara dəniz

# Nağıllar şəhəri Safranbolu



II yazı

***Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Qərbi Qara dənizi tanıtmaq məqsədilə gerçəkləşdirdiyi layihə çərçivəsində Türk dövlətlərindən bir qrup jurnalistin bölgəyə səfəri təşkil edilib.***

***Jurnalistlərin növbəti dayanacağı Karabük vilayətinin Eskipazar rayonu ərazisindəki Hadrianapolis antik şəhəridir.***

Antik şəhərin qalıqları ilk dəfə 2003-cü ildə qanunsuz qazıntılar nəticəsində kəşf olunub. Bölgədə qanunsuz qızıl və digər dəyərli əşyalar axtaran şəxslər (Türkiyədə belə hadisələr mütəmadi qeydə alınır) ərazini qazarkən torpağın altından müxtəlif əşyalar, daşlar tapıblar. Onların qanunsuz əməlləri aşkarlanaraq, həbs ediliblər və nəticədə bu qədim şəhər üzə çıxıb.

Bölgədə araşdırma aparan arxeoloqlar o vaxtdan indiyədək xeyli qədim məskən və əşya aşkarlayıblar. Arxeoloq Sinan Ekinci deyir ki, qalıntılar eramızdan sonra 5-ci əsrdə burada məskunlaşma olduğunu sübuta yetirir. İndiyədək ərazidə Roma, erkən Bizans dönəminə aid 4 kilsə, 2 hamam, qala divarları aşkarlanıb.

Məskənlərdə aşkarlanan əşya və mozaikalardakı rəsmlər, yazılar, işarələr ərazinin tarixi ilə bağlı ciddi ip ucları verir.

1523.5 kv.m ölçülərində olan bir kilsədə 4 vacib mozaika tapılıb. Heç bir boya qatqısı olmayan, orijinal sarı, qırmızı, yaşıl, qara və digər rənglərdəki parlaq daşlardan hazırlanan mozaikalarda qadın, kişi, heyvan, quş, meyvə fiqurları ilə yanaşı, Xristian inancına görə cənnətdəki 4 çayın adı da həkk olunub. Bunlar Pişon, Geon, Fərat və Dəclə çaylarıdır. Bu, Anadoluda rast gəlinən ilk kompozisiyadır.

Kilsələrdən biri ilə bağlı bütün qazıntı işləri başa çatıb, xarici təsirlərdən qorumaq üçün üstü örtülüb, turistlərin istifadəsinə verilib. Digər kilsə və hamamlar, qala divarları ilə bağlı arxeoloji qazıntı və araşdırmalar isə davam edir.

***Antik şəhərdən möhtəşəm təəssüratlarla ayrılaraq nağıllar diyarına – Safranboluya üz tuturuq. Diqqəti ilk çəkən rayonun mərkəzi meydanındakı qədim məscidin qarşısında ucaldılmış safran (zəfəran) abidəsidir.***

**Antik şəhərdən möhtəşəm təəssüratlarla ayrılaraq nağıllar diyarına – Safranboluya üz tuturuq. Diqqəti ilk çəkən rayonun mərkəzi meydanındakı qədim məscidin qarşısında ucaldılmış safran (zəfəran) abidəsidir.**
**Adından da məlum olduğu kimi, bölgədə zəfəran ən çox əkilən məhsuldur. Safranbolunun zəfəranlı yeməkləri, içkiləri – o cümlədən çay və qəhvələri, şirniyyatları, kosmetik, təmizlik məhsulları təkcə bölgədə, Türkiyədə yox, dünyada məşhurdur.**




Adından da məlum olduğu kimi, bölgədə zəfəran ən çox əkilən məhsuldur. Safranbolunun zəfəranlı yeməkləri, içkiləri – o cümlədən çay və qəhvələri, şirniyyatları, kosmetik, təmizlik məhsulları təkcə bölgədə, Türkiyədə yox, dünyada məşhurdur.

**Safranbolu haqqında qısa məlumat:**

Şəhərdə eramızdan əvvəl 3-cü əsrdə məskunlaşmanın olduğu artıq təsdiqlənib.

Səlcuqlular tərəfindən fəth edilərkən adı Dadibra olan şəhər 1196-cı ildə türklərin əlinə keçib.



Osmanlı imperiyası dönəmində İstanbul-Sinop karvan yolunun üzərində olduğu üçün yolçuların dincəldiyi mərkəzə çevrilib, bu səbəbdən mədəniyyət və iqtisadi baxımdan xeyli inkişaf edib.

O zaman inşa edilən binalar, məscid və hamamlar, karvansaraylar bu gün də istifadə olunmaqda və qorunmaqdadır.

Safranbolu 1994-cü ildə UNESCO-nun mühafizə olunan şəhərlər siyahısına alınıb və "Dünya şəhəri " statusunu alıb.

***Safranbolunun mərkəzindəki bütün evlərin, iş yerlərinin, rəsmi qurumların binalarının hamısı tarixi binalardır. Restoranlar, otellər tarixi binalarda yerləşir. Bu möhtəşəmliyi şəhərin ən yüksək yerindəki Xıdır təpəsindən izləmək isə başqa bir duyğudur. Təpədən gerçək bir şəhərə yox, sanki tarixi filmə baxırsan...***

*Antik şəhərin qalıqları ilk dəfə 2003-cü ildə qanunsuz qazıntılar nəticəsində kəşf olunub. Bölgədə qanunsuz qızıl və digər dəyərli əşyalar axtaran şəxslər (Türkiyədə belə hadisələr mütəmadi qeydə alınır) ərazini qazarkən torpağın altından müxtəlif əşyalar, daşlar tapıblar. Onların qanunsuz əməlləri aşkarlanaraq, həbs ediliblər və nəticədə bu qədim şəhər üzə çıxıb. Bölgədə araşdırma aparan arxeoloqlar o vaxtdan indiyədək xeyli qədim məskən və əşya aşkarlayıblar. Arxeoloq Sinan Ekinci deyir ki, qalıntılar eramızdan sonra 5-ci əsrdə burada məskunlaşma olduğunu sübuta yetirir. İndiyədək ərazidə Roma, erkən Bizans dönəminə aid 4 kilsə, 2 hamam, qala divarları aşkarlanıb.*

**ardı olacaq..**

Oxu, oxut, abunə ol!